**Azərbaycan Respublikası Energetika Nazirliyinin**
**Apellyasiya Şurası**

**Q Ə R A R № 12**

**Bakı şəhəri** **14 dekabr 2022-ci il**

Azərbaycan Respublikası Energetika Nazirliyinin Apellyasiya Şurası (bundan sonra - Şura) namizəd Ələsgərli Aysel Slava qızının dövlət qulluğuna qəbulla bağlı keçirilən müsahibənin nəticəsindən narazılığı barədə 29.11.2022-ci il tarixli (daxil olma qeydiyyatı: 29.11.2022, EN-02-Ə-4222/82/22) şikayətinə baxaraq aşağıdakıları

**M Ü Ə Y Y Ə N  E T D İ :**

Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin 07.12.2022-ci il tarixli PHŞ/3-2-2022-3469 nömrəli məktubu ilə təqdim edilmiş sənədlərə əsasən namizəd Ələsgərli Aysel Slava qızı 2022-ci il 6 sentyabr tarixində elan edilmiş müsabiqə üzrə müsahibə çərçivəsində Azərbaycan Respublikasının Energetika Nazirliyi Aparatının Dövlət qulluğu və kadrlar şöbəsi, Dövlət qulluğu sektorunun aparıcı məsləhətçi vəzifəsi üzrə 2022-ci il 28 noyabr tarixində keçirilmiş müsahibədə iştirak etmiş və 15.3 bal toplayaraq iddia etdiyi vəzifəyə uyğun hesab edilməmişdir.

A.Ələsgərli Müsahibə Komissiyasının qərarından narazı qaldığını bildirərək, müsahibənin nəticəsinə yenidən baxılmasını xahiş etmişdir.

Şikayətlə əlaqədar Şuranın Katibliyi tərəfindən zəruri məlumatların əldə olunması təmin edilmişdir. Müsahibə materialları, o cümlədən müvafiq videoçəkiliş Şura üzvləri tərəfindən araşdırılmışdır.

Beləliklə, vətəndaşın şikayəti Şuranın icraatına qəbul edilərək 14 dekabr 2022-ci il tarixli iclasın gündəliyinə daxil edilmişdir. Şuranın iclasında aparılan müzakirələrdə, eyni zamanda müsahibənin video çəkilişinə baxılan zaman müəyyən edilmişdir ki, A.Ələsgərli ilə aparılmış müsahibə zamanı qanunvericiliyin tələbləri, o cümlədən Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 21 iyun tarixli 1480 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət qulluğu vəzifəsinin tutulması məqsədi ilə müsahibə keçirilməsi Qaydası"nın tələbləri pozulmamış, eyni zamanda obyektivliyə əməl olunmaqla qərəzliliyə yol verilməmişdir. Bununla da, işin faktiki halları və qanunvericiliyin müvafiq müddəaları nəzərə alınmaqla şikayətin təmin edilməməsi qərara alınmışdır.

Yuxarıda göstərilənləri nəzərə alaraq, Azərbaycan Respublikası Prezidentinin 3 fevral 2016-cı il tarixli 762 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Mərkəzi icra hakimiyyəti orqanlarının Apellyasiya Şuraları haqqında Nümunəvi Əsasnamə"nin 7.3.1-ci və 7.4.3-cü yarımbəndlərini rəhbər tutaraq, Energetika Nazirliyinin Apellyasiya Şurası

**Q Ə R A R A  A L I R :**

1. Ələsgərli Aysel Slava qızının dövlət qulluğuna qəbulla bağlı keçirilmiş müsahibənin nəticəsindən narazılığı barədə şikayəti təmin edilməsin.

2. Müsahibə Komissiyasının Ələsgərli Aysel Slava qızı barəsində qəbul etdiyi qərar dəyişdirilmədən saxlanılsın.

3. Qərarın surəti məlumat üçün Ələsgərli Aysel Slava qızına və Dövlət İmtahan Mərkəzinə göndərilsin.

4. Qərardan onun təqdim olunduğu vaxtdan 30 gün müddətində məhkəməyə şikayət verilə bilər.

**Azərbaycan Respublikası**
**Energetika Nazirliyinin**
**Apellyasiya Şurasının sədri** **Samir Vəliyev**